*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 480-486*

https://doi.org/10.62837/2026.4.480

**JALƏ HÜSEYNOVA**
**Filologiya elmləri namizədi, dosent**
**Bakı Dövlət Universiteti**

# MARAĞALI ZEYNALABDİNİN "İBRAHİM BƏYİN SƏYAHƏTNAMƏSİ" ƏSƏRİNDƏ OBRAZLAR ALƏMİ

## XÜLASƏ

Məqalədə Marağalı Zeynalabdinin "İbrahim bəyin səyahətnaməsi" əsərində obrazlar sistemi ideya-bədii kontekstdə təhlil edilir. Tədqiqatın məqsədi əsərdəki əsas və yardımçı obrazların tipoloji xüsusiyyətlərini müəyyənləşdirmək, onların ictimai-siyasi və mənəvi-əxlaqi mühitlə əlaqəsini üzə çıxarmaqdan ibarətdir. Araşdırmada İbrahim bəy obrazı maarifçi-realistik düşüncənin daşıyıcısı kimi səciyyələndirilir, onun vasitəsilə müəllifin Şərq cəmiyyətinin geriliyi, dini fanatizm, sosial ədalətsizlik və milli oyanış problemlərinə münasibəti şərh olunur.

Əsərin obrazlar aləminin tənqidi realizm ənənələri ilə bağlılığı əsaslandırılır və onların XIX əsr sonu-XX əsr əvvəlləri ictimai fikrinin bədii inikasında rolu müəyyənləşdirilir.

**Açar sözlər:** XIX əsr Azərbaycan ədəbiyyatı, Cənubi Azərbaycan ədəbiyyatı, Marağalı Zeynalabdin, tipik obraz, tənqidi realizm

Mürəkkəb bir dövr hesab olunan XIX əsr Azərbaycan ədəbiyyatının bu gün də aktuallığını qoruyub saxlayan əsərlərindən biri də Zeynalabdin Marağalının "İbrahim bəyin səyahətnaməsi" romanıdır. Ədəbiyyatımızda səyahətnamə janrının formalaşmasında rolu olan bu əsər azadlığa çağırış ruhu, vətəndaş mövqeyi, milli təəssübkeşlik kimi xüsusiyyətlərin təbliği baxımından bu gün də müasirliyini qorumaqdadır.

Sələfi M.F.Axundzadə yaradıcılığını "XIX əsrin ensiklopediyası" kimi dəyərləndirən alimlər M.Zeynalabdinin "İbrahim bəyin səyahətnaməsi" əsərini "İran həyatının ensiklopediyası" hesab edirlər. Professor Mir Cəlal Paşayev "Mirzə Fətəli Axundovun farsca yazan şagirdləri" məqaləsində Z.Marağalını N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə kimi yazıçılarla birlikdə M.F.Axundov realizmini davam və inkişaf etdirən yazıçı kimi qiymətləndirirdi: *"Marağalı Zeynalabdinin romanı XX əsrin Azərbaycan ədəbiyyatında, ümumən Yaxın Şərq ədəbiyyatında müstəsna əhəmiyyəti olan əsərlərdəndir. M.F.Axundovdan sonra yalnız İran deyil, bütün Şərq feodalizmi haqqında yazılan bədii, siyasi tənqidlərin ən qüvvətlisidir"* (9, s. 72).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 480-486*

Feyzulla Qasımzadə "XIX əsr Azərbaycan ədəbiyyatı" dərsliyində romanın orijinal keyfiyyətlərini dəyərləndirmiş, M.F.Axundovun "Kəmalüddövlə məktubları" ilə müqayisə etmişdir (5).

Qulu Xəlilov "Azərbaycan romanının inkişaf tarixindən" kitabında romanın nəşri və təbliği ilə bağlı məsələlərə toxunmuş, "İbrahim bəyin səyahətnaməsi"ni "Azərbaycan romanının proloqu" adlandırmışdır (3, s. 88).

Əsərin nəşr tarixi ilə bağlı ədəbiyyatşünaslıqda müxtəlif mülahizələr öz əksini tapır.

Akademik İsa Həbibbəyli əsərin nəşr tarixini belə qeyd edir: *"1896-cı il – "İbrahim bəyin səyahətnaməsi" romanını Yaltada yazıb tamamlamışdır. 1897-ci il – Romanın birinci cildi Qahirədə çapdan çıxmışdır. 1905-ci il – İstanbulda "İbrahim bəyin səyahətnaməsi"nin ikinci cildini yazmışdır. 1906-cı il – Romanın III cildi tamamlanmışdır"* (2, s. 74).

"Molla Nəsrəddin" jurnalının redaktoru C.Məmmədquluzadə bu əsəri yüksək dəyərləndirmiş, İran təbəələrini kitabı diqqətlə oxuyub ondan nəticə çıxarmağa səsləmişdir. "Həmşəri" adlı felyetonunda yazırdı: *"Ey mənə kağız yazan həmşərilər, açın qulağınızı və görün mən sizə nə deyirəm!.. Əvvələn, gərək bir-birinizlə əl-ələ verəsiniz...*

*Elə ki, bir-birinizin əlindən yapışdınız, o vədə, söz yox ki, yenə mənə kağız yazıb soruşacaqsınız ki, "indi bəs nə eləyək?" və o vədə mən sizə bu sözləri yazacağam; keçən vaxtlarda vətənpərəsti-həqiqi və alimi-yeganə cənab Mirzə Melkumyans məzlumlar barəsində bir kitab yazıb; mən sizə yazacağam ki, tapın haman kitabı və açın qabağınıza və oxuyun. Oxuyandan sonra həmin kitabı vurun qoltuğunuza və Arazı hoppanın, keçin tarmar vətəninizə və orada açın bir tərəfdə həmin kitabı və bir tərəfdə İbrahim bəyin "Səyahətnaməsi"ni, oxuyun, oxuyun, oxuyun!"* (7, s. 128-129).

Mirzə Cəlil romanı yüksək dəyərləndirmiş, jurnalda əsərdən hissələr dərc etdirmiş, "diridirlər ölü kimi, ölüdürlər diri kimi" sözlərilə avam, təəssübkeşlik hissindən məhrum olan, dini fanatizmin qurbanlarını "ölülər" adlandırmışdır. "Molla Nəsrəddin" jurnalının müxtəlif nömrələrində çap etdirdiyi "İranlılara", "İran konsulları", "İran fəhlələrinin pulu hara gedir?", "İranın Batum konsuluna başıbağlı məktub", "Həmşəri", "Məhəmmədəli şah və bütpərəstlər", "Quba meydanı", "Bağdad", "İttihad" və s. felyetonları əsərin mövzusu ilə, orada qaldırılan problemlərlə uyğundur. Cəmiyyətin tərəqqidən geri qalan cahil insanları bu sənətkarları eyni dərəcədə məyus edirdi.

Digər mollanəsrəddinçilər də bu əsərin yüksək dəyərləndirmiş, əsərin Azərbaycan mühiti ilə bağlı olduğunu dəfələrlə vurğulamışlar. Belə ki, Ə.Haqverdiyev "Mozalan bəyin səyahətnaməsi"nin meydana gəlməsi ilə bağlı yazırdı: *"Bir dəfə cəm olub "İbrahim bəyin səyahətnaməsi"ndən söhbət edirdik. Burada "Molla Nəsrəddin"in dostlarından Ömər Faiq Nemanzadə, Salman Mümtaz,*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 480-486*

*Qurbanəli Şərifzadə var idi. Mən dedim ki, nə olardı bu kitaba nəzirə bir "Səyahətnameyi-Molla Nəsrəddin" də olardı... Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi:*

*- Gəlin biz də Mozalanı gəzdirək. Ancaq bunun "Səyahətnamə"sini öz aramızda bölüşdürək... Beləliklə, "Mozalan bəyin səyahətnamə"si ortaya çıxdı"* (1, s. 373 ).

Görkəmli ədəbiyyatşünas alim F.Köçərli 1906-cı ildə "İranın oyanması" məqaləsində romanın aydın, səlis dildə yazıldığını və təkcə İrana deyil, İrandan kənara da təsir etdiyini qeyd etmişdir. *"Kitab müasir İranın həyatı ilə, xüsusən, İran xalqının vəziyyəti və İran hökümətinin ona münasibəti ilə oxucuları tanış edirdi. Bu kitab bir daha bizdə belə bir əqidəni möhkəmlətdi ki, İran ən bədbəxt ölkədir və o, yaxın gələcəkdə mütləq məhv olacaqdır*" (4, s. 127).

"Səyahətnamə"nin obrazlar aləmi zəngin və orijinaldır. Hadisələr İbrahim bəyin ətrafında cərəyan edir. Əsərin birinci cildi əsas qəhrəmanın səyahət təəssüratlarını, cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlarla ünsiyyətini, təəssübkeşlik üzündən xəstəlik tapmasını əhatə edir. İkinci və üçüncü cildlərdə isə İbrahim bəyin çarəsiz xəstəlik nəticəsində dünyadan köçməsi və digər məsələlər təsvir olunur.

İbrahim bəyin atası insani xüsusiyyətləri və vətənpərvərliyi ilə seçilən insanlardan idi. Sədaqətli, təmiz qəlbli, vicdanlı tacir dini dəyərlərə də yüksək qiymət verirdi. Son nəfəsində oğluna vəsiyyətləri bu gün üçün də dəyərli və qiymətlidir: Ananın qədrini bilmək, ondan muğayat olmaq, müəllimi Yusif əminin hörmətini saxlamaq, milli adət-ənənəni tərk etməmək, fikrini hər bir adamdan gizli saxlamaq, yalnız vicdanlı dostla ünsiyyət qurub bölüşmək, yaltaq adamlardan uzaq gəzmək (əks halda onlar insanı lovğalığa və xudbinliyə düçar edir), az qonaq getmək, səyahətə çıxb yol qeydləri götürmək, onun dost olmadığı insanlardan uzaq olmaq və s.

İbrahim bəyin təsəvvüründə İran cənnətməkan bir yer kimi canlanır, o barədə söhbətlər İbrahimi başqa bir aləmə aparır. İrana olan sevgisini hər şeydən üstün tutur, xəyalları ilə gerçəkləri uzlaşmayanda isə mənəvi sarsıntı keçirdir. O düşünür ki, İranın vəziyyətinin səbəbi iranlılar və şahlardır. Ona görə ölkəni ədalətli, maarifçi hökmdar idarə edərsə, bütün haqsızlıqların, qüsurların aradan götürülməsi mümkün olar.

Prof. Mir Cəlal Paşayev İbrahim bəy obrazını mövcud qanunlara üsyan səsini ucaldan, həmişə geniş kütlə tərəfindən anlaşılmayan, lakin vətənini, xalqını varlığı ilə sevən "artıq adamlar" silsiləsindən biri kimi dəyərləndirmişdir (9, s. 232).

Tədqiqatçılar İbrahim bəyi avtobioqrafik obraz kimi dəyərləndirirlər. Həm müəllifin, həm də əsas obrazın tərcümeyi-hal faktları bu fikri bir daha təsdiq edir. Əflatun Saraclının yazdığı kimi, *"İbrahim bəy elə Zeynalabdinin maarifçi görüşlərinin ifadəçisidir, onun prototipidir, ideya ruporudur"* (10, s. 22).

Həmid Məmmədzadə İbrahim bəylə müəllif arasındakı oxşarlığı belə izah edir: *"...Zeynalabdin də, İbrahim bəy kimi, uzun müddət vətənindən uzaqda yaşamış, qürbətdə keçirdiyi günlərdə onun vətənpərvərlik hissləri hicran atəşi ilə təhrik olunmuş, "Səyahətnamə"ni yazmaqla vətənin dərdlərini açıb göstərmiş və həmvətənləri ona çarə aramağa çağırmışdır"* (8, s. 279).

Maarifçi ziyalı obrazlar silsiləsinə aid olan İbrahim bəy də müəllifin özü kimi elm, inkişaf carçısıdır. İbrahim bəy də, yazıçı da Cənubi Azərbaycandandır, ikisi də tacir ailəsindəndir, hər ikisi uzun müddət qürbətdə yaşayıb, milli adətlərə əməl edib, ata-baba yolunu əziz tutaraq xeyirxahlığa üstünlük verib.

Səyahət zamanı o, təsəvvüründə canlandırdıqlarının əksini, insanlığa uymayan hadisələri atasının dediyi kimi, gündəliyinə qeyd edirdi. Bunlar ona qəm-qüssə gətirsə də, həmvətənlərinin əhvalını yazmaqdan çəkinmirdi. İranın əzəməti, şövkəti barədə mədh edənlərin söhbəti İbrahim bəyi fərəhləndirir, pis fikirlər isə düşüncələrini alt-üst edir, gecələrlə yuxusuz qalmasına səbəb olurdu.

Səyahətə başladığı gündən İbrahim bəy ətrafı müşahidə etməklə həqiqətpərəstliyi, gördüklərinə obyektiv tənqidi münasibəti, cəsarətli, üsyankar çıxışları ilə seçilir. Müəllifin də məqsədi o idi ki, vətənini, xalqını sevən, onun nöqsanlarına göz yummayan maarifçi obraz nümunəsi yaratsın. Həyatı kökündən dəyişmək istəyən İbrahim bəy cəmiyyətin müxtəlif təbəqələrinə, xalqı istismar edərək hüquqsuz vəziyyətdə saxlayan məmurlara, dini fanatizmi təbliğ edən yalançı ruhanilərə, savadsız, nadan müəllimlərə, xalqın dərdlərindən bixəbər, biganə nazirlərə etiraz edir, yoxsulların dözülməz vəziyyətinə görə əzab çəkir: *"Nə vaxtadək zalımların əlində xalqla necə rəftar etməyi, kimdən nə qədər vergi almağı müəyyənləşdirən bir təlimat kitabçası və əməl qaydası olmayacaq?! Allahın ən dəyərli əmanəti olan bu rəiyyət adlandırdığımız insanların halına nə vaxtadək etinasız yanaşacaqsınız?.. "* (6, s. 25).

Elmi ateizmin fənn kimi tədris olunduğu sovet dövründə obraza yanlış mövqedən yanaşılmış, obrazın daxili aləminin araşdırılmasında təhrifə yol verilmişdir. Əsərdə Nəsrəddin şah dövründə baş nazir işləyən, maarifpərvər Mirzə Təqi xan, şair Mirzə Rza xan Daneş, İranın Tiflis səfiri Mirzə Hüseyn xan Müşiriddövlə, tarixçi Mirzə Razi, şair Əbu Nəsr Şeybani və "möhtərəm şəxs"in adları xüsusi hörmətlə çəkilir, vətənpərvərlərin qibləgahı hesab olunur.

İbrahim bəy möhtərəm şəxsin yazdığı kitabları yüksək qiymətləndirir, onun simasında qaranlıq aləmdə parlayan nur görür, mələk simalı insan hesab edir. Həmişə mütaliə ilə məşğul olan bu insanın kitabxanasını behiştə bənzədir. Şahı və onun vəzirlərini cəsarətlə tənqid etməkdən çəkinməyən bu şəxs cəmiyyətdə təkdir, onu anlayanların, dəyər verənlərin sayı azdır. Dövlətin varlığını düzgün siyasətdə görən möhtərəm şəxsin fikirləri İbrahim bəyin dünyagörüşünə uyğundur. H.Məmmədzadə və Ə.Saraclı XIX əsrdə tanınmış siyasi xadim sədrəzəm Mirzə Əli xanı "möhtərəm cənab"ın prototipi hesab etmişlər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 480-486*

Əsərdə müəllifin Azərbaycan sevgisi öz əksini tapmışdır. Belə ki, səyahət boyu doğma yurdumuzun tarixi, dövlət xadimləri, şəhərləri və sənətkarları haqqında məlumat verilir. Z.Marağalının vətən anlayışı İranı və Azərbaycanı əhatə edir. Azərbaycan türkü olduğu üçün İbrahim bəy gördüyü şəhərlərin çoxu haqqında məlumat verir. Bakı, Naxçıvan, Qarabağ, Gəncə, Şirvan, Şəki, Culfa kimi şəhərlərdə olur, Bakının qara qızılından söhbət açır, hətta Azərbaycanda iqamətgah tikdirib məskən salmaq arzusunda olur.

M.F.Axundovun "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsərindəki nuxulular, C.Məmmədquluzadənin "Ölülər" əsərindəki ölülər kimi iranlılar da kütləvi obrazlardır. Vətənlərindən kənarda "həmşəri" adlandırılan bu insanlar hər addımda təhqirə məruz qalaraq qara, çirkli, çox əmək sərf olunan yerlərdə çalışırdılar. C.Məmmədquluzadə felyetonlarında vətənlərində çörəyə möhtac bu adamların problemlərini işıqlandırmışdır.

Romanda yadda qalan obrazlardan biri də İbrahim bəyin müəllimi və tərbiyəçisi Yusif əmidir. İkinci cildin əvvəlində oxucu onun tərcümeyi-halı ilə tanış olur. Yusif əmi İbrahim müəllimə valideyn qayğısı və sevgisiylə yanaşır, sona qədər fədakarlıq nümayiş etdirir. Dəyərli məsləhətləri, sevgiyə olan hörməti, qayğıkeşliyi, həqiqətpərəstliyi bu obrazı oxucuya daha çox sevdirir. O, İranda rüşvətxorluğun son həddə çatdığını, zülmün ərşə çıxdığını, şəhər və kəndlərin xarabaya çevrildiyini, vəzirlərin dilənçi kimi xalqı soyduqlarını, işlərin bacarıqsızlar əlində olduğunu çəkinmədən söyləyir. İbrahim bəyi İrana səyahəti zamanı tək qoymur, sevinci və kədərinə şərik olur, onunla bərabər əzab çəkir, sarsıntı keçirir. İranda gördükləri yaramazlıqlardan daha çox İbrahim bəyin daxili sarsıntıları ona əzab verir, Misirə sağ-salamat qayıtmaq üçün var qüvvəsi ilə çalışır. İbrahim bəyi xəstə yatağında görmək Yusif əmini çox pərişan edir, ümidsiz olduğunu bildikdə göz yaşları axıdır, dünyasını dəyişdikdən sonra isə yeganə təsəllisi sevgililərin məzarını ziyarət etmək olur.

Yusif əmi S.S.Axundovun "Qorxulu nağıllar" silsiləsindən tanış olduğumuz "Qaraca qız"dakı Piri baba, "Nurəddin"dəki İmamverdi baba obrazlarını xatırladır, oxucuda rəğbət hissi oyadaraq unudulmur.

Əsərin qadın obrazları içərisində Məhbubə fədakarlığı, sevgiyə sədaqəti ilə seçilir. On altı yaşından bu ailəyə gətirilən gənc qız bacarığı, ədəbiyyata marağı, şeir yazmaq qabiliyyəti, ev işlərində səliqəsi, səriştəsi ilə seçilərək "balaca xanım" deyə çağırılır.

İbrahim bəyin anası Haciyə xanım onu gələcək gəlini kimi qəbul edir. Məhbubə İbrahim bəyi İrana olan sevgisiylə bərabər o qədər qəbullanır ki, ona hörmət əlaməti olaraq iranlılara ehtiram bəsləyir. Yusif əmi onu "dünya gözəli", "zəmanəmizin Züleyxası", "hüsn və məlahətdə, işvə və nazda misilsiz" biri kimi vəsf edir. Zahiri gözəlliyi ilə bərabər, daxili aləmi, yüksək əxlaqi keyfiyyətləri onu daha da sevimli edirdi. İbrahim bəyin xəstə halda gətirildiyini gördükdə utancaqlıq

hisslərini unudaraq fəryad qoparır. Canı sevdiyi oğlanın nəfəsində, iki bədəndə bir ruh kimi yaşayan gözəl qız ömrünü onun yolunda fəda edir.

Ədəbiyyatşünaslıqda Məhbubə obrazını Azərbaycan romanında yaranmış ideal qadın orazı kimi dəyərləndirirlər.

"İbrahim bəyin səyahətnaməsi" romanında Haciyə xanım, Rəfiqə, Səkinə kimi epizodik obrazlar da əsas qəhrəmanların xarakterinin açılmasında müəyyən rol oynayır. Bütün fədakar analar kimi Haciyə xanım da İbrahim bəyin çəkdiyi sarsıntılara üzülür, şam kimi əriyir. Övladının şəfa tapması üçün canından və qanından belə keçməyə hazır olan ana alicənablığı ilə də sevilib seçilir.

"Səyahətnamə"dəki obrazlar klassik Azərbaycan nəsrində orijinalığı ilə yadda qalır, İran ictimai mühiti haqqında geniş təsəvvür yaradır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə, II cild, Bakı: Lider, 2005, 408 s.
2. Həbibbəyli İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlan, 2004, 160 s.
3. Xəlilov Q. Azərbaycan romanının inkişaf tarixindən. Bakı: Elm, 1973, 352 s.
4. Köçərli F. Seçilmiş əsərləri. Bakı: AzSSR EA, 1963, 343 s.
5. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2017, 552 s.
6. Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Bakı: Elm, 1982, 498 s.
7. Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə, II cild, Bakı: Öndər, 2004, 584 s.
8. Məmmədzadə H. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971, 368 s.
9. Paşayev Mir Cəlal. M.F.Axundovun farsca yazan şagirdləri / SSRİ EA Azərbaycan Filialı Xəbərləri, 1945, № 8.
10. Saraclı Ə. Zeynalabdin Marağalı. Bakı: Gənclik, 1996, 176 s.

**Жала Гусейнова**

## «МИР ОБРАЗОВ В ПРОИЗВЕДЕНИИ МАРАГАЛИ ЗЕЙНАЛАБДИНА «ДНЕВНИК ПУТЕШЕСТВИЯ ИБРАГИМ-БЕКА»

## РЕЗЮМЕ

В статье анализируется система образов в произведении Зайн ал-Абидина Марагаи «Дневник путешествия Ибрагим-бека» в идейно-художественном контексте. Цель исследования заключается в определении типологических особенностей основных и вспомогательных персонажей, выявлении их связи с общественно-политической и духовно-нравственной средой. В работе образ Ибрагим-бека характеризуется как носитель просветительско-реалистического мышления; через него автор выражает отношение к проблемам отсталости восточного общества, религиозного фанатизма, социальной несправедливости и национального пробуждения.

Обосновывается связь мира образов произведения с традициями критического реализма и определяется их значение в художественном отражении общественной мысли конца XIX – начала XX века.

**Ключевые слова:** азербайджанская литература XIX века, литература Южного Азербайджана, Марагали Зейналабдин, типичный образ, критический реализм

**Jala Huseynova**

**SUMMARY**

**THE WORLD OF IMAGES IN ZAYN-OL-ABIDIN MARAGHEI'S WORK "THE TRAVEL DIARY OF EBRAHIM-BEG”**

The article analyzes the system of images in Zayn ol-Abedin Maraghei’s work “The Travel Diary of Ebrahim-beg” within the ideological and artistic context. The aim of the study is to determine the typological features of the main and secondary characters, and to reveal their connection with the socio-political and spiritual-moral environment. In the work, the image of Ebrahim-beg is characterized as a bearer of Enlightenment-oriented realist thinking; through him, the author expresses his attitude toward the problems of backwardness in Eastern society, religious fanaticism, social injustice, and national awakening.

The connection between the world of images in the work and the traditions of critical realism is substantiated, and their significance in the artistic reflection of social thought at the end of the 19th and beginning of the 20th century is defined.

**Keywords:** 19th-century Azerbaijani literature, literature of Southern Azerbaijan, Maragali Zeynalabdin, typical image, critical realism

**Rəyçi: professor Sənan İbrahimov**